# Nailiyyətlər ili



**2024-cü il Azərbaycan üçün hərtərəfli inkişaf ili kimi əlamətdar hadisələrlə yadda qaldı. Xüsusilə xarici siyasətimizdə nəticəyönümlü uğurlar dövlətimizin gücünə əlavə güc qatdı. Ölkəmiz üçün bu il ən çox nə ilə yadda qaldı deyə soruşulsa, təbii ki, bunun Azərbaycanın möhtəşəm evsahibliyi ilə etdiyi COP29 konfransı olması heç kimdə şübhə doğurmur.**

Bu ilin "Yaşıl dünya naminə həmrəylik ili" olması ilə əlaqədar ölkədə il boyu "yaşıl strategiya" həyata keçirilib. BMT-in İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına evsahibliyinin dünyanın 200-ə yaxın ölkəsi tərəfindən Azərbaycana həvalə olunması və uğurla COP29 tədbirinin keçirilməsi beynəlxalq arenada qazandığımız növbəti uğur oldu. Bu, ölkə Prezidentinin apardığı mütərəqqi və uğurlu diplomatik siyasət nəticəsində baş verdi. COP29 çərçivəsində qəbul edilən tarixi nailiyyət Bakı Maliyyə Hədəfi, Paris Sazişi çərçivəsində təsis edilən İtki və Zərər Fondunun tam işlək vəziyyətə gətirilməsi oldu, həmçinin karbon bazarlarına dair 6-cı maddə üzrə on illik müzakirələrə son qoydu. Yeni mexanizm vasitəsilə karbon maliyyə axınlarının illik 1 trilyon dollara çatması gözlənilir ki, bu da milli iqlim planlarının həyata keçirilməsi üçün əlavə maliyyə mənbələri yaradır. COP29 İqlim Konfransı Azərbaycanın qlobal səhnədə iqlim dəyişikliyi ilə mübarizədə lider ölkə kimi mövqeyini daha da möhkəmləndirdi. Bakı bu möhtəşəm tədbirə evsahibliyi etməklə yalnız iqlim siyasətində liderlik göstərmədi, həm də qlobal ekoloji strategiyaların inkişafına mühüm töhfələr verdi. COP29 Azərbaycanın on minlərlə qonağı ola biləcək qlobal tədbirləri yüksək səviyyədə həyata keçirə biləcək potensialının olduğunu göstərdi. Bu, həm də Azərbaycanın qətiyyətini və diplomatların iqlim danışıqlarındakı qabiliyyətini dünyaya nümayiş etdirdi.

Ölkədaxili uğurlara nəzər salsaq, Böyük qayıdış proqramının icrası, işğaldan azad olmuş ərazilərdə bərpa, quruculuq işlərinin uğurla davam etdirilməsini xüsusi diqqətə çatdıra bilərik. Bu günədək 167 min hektardan çox ərazi minadan təmizlənib. Dövlət başçısı bu il işğaldan azad olmuş ərazilərə ilk səfərini fevral ayında Xocalı şəhərinə edib. Prezident Xocalı sakinləri ilə görüşüb və tarixi ədalətin bərpa olunmasından danışıb. Daha sonra may ayında Füzuli rayonunda Köndələnçay su anbarı kompleksinin, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun inşa edilmiş birinci tuneli, Şuşada "Şirin su" hamamının açılışı olub. Məhz 20 Sentyabr Dövlət Suverenliyi Günündə Xankəndi şəhərində Qarabağ Universitetinin açılışında da cənab Prezident şəxsən iştirak edib, müəllim və tələbə heyəti ilə görüşüb. Bu il həm də Cəbrayılda ilk yaşayış kompleksi tamamlanıb və mənzillər sakinlərə təhvil verilib. 2024-cü ildə həmçinin dövlətin "Yaşıl enerji" strategiyası çərçivəsində Cəbrayıl və Zəngilanda böyükmiqyaslı günəş və külək-elektrik stansiyalarının tikintisi başa çatdırılıb. Xüsusən, Laçın və Kəlbəcər rayonlarında şəhərsalma və yenidənqurma işləri dövlətin diqqət mərkəzində olub.

Ölkəmiz BMT tərəfindən səsvermə yolu ilə 2026-cı ildə Dünya Şəhərsalma forumuna və Dünya Ətraf Mühit gününə evsahibliyi etmək haqqı qazanıb. Bakıda 2026-cı ildə keçiriləcək 13-cü Ümumdünya Şəhərsalma Forumunun (WUF13) minlərlə beynəlxalq iştirakçıya dayanıqlı və sağlam şəhərlərin inkişafı sahəsində Azərbaycanın nailiyyətləri ilə tanış olmaq üçün gözəl fürsət olacaq.

2024-cü il XXI əsrdə müstəmləkəçilik və müstəmləkəçiliyin yeni formaları ilə mübarizə aparan Bakı Təşəbbüs Qrupunun uğurlu advokasiya fəaliyyəti ilə də yadda qalıb. Belə ki, BTQ-nin fəaliyyətə başlamasından keçən 1 il 4 ay ərzində əməkdaşlıq etdiyi ərazilərin sayı 18-ə çatıb. 2024-cü ildə Qəmər Adaları da əhatə dairəsinə qoşulub. Bu il 17 beynəlxalq konfrans keçirilib və onların bəziləri BMT qərargahlarında, Nyu Yorkda, Cenevrədə baş tutub. Həmçinin BMT-nin İnsan Hüquqları Komitəsindən Fransa hökumətinin Martinik və Yeni Kaledoniyada həyata keçirdiyi müstəmləkəçilik haqqında hesabat istənilmişdi. Bu, son 5 ildə Fransa hökuməti qarşısında ilk tələb idi. Qərbi Azərbaycan İcmasının fəallığı, həmçinin beynəlxalq fəaliyyətini də xüsusilə qeyd etmək lazımdır. İcmanın fəaliyyətinin əsasını təşkil edən Qayıdış Konsepsiyasının uğurlu icrası, bu konsepsiyaya uyğun olaraq ölkə daxilində və xaricdə genişmiqyaslı işlərin görülməsi, tədbirlərin həyata keçirilməsi, Barselona, Vyana, Cenevrə, Nyu York, Polşa kimi şəhərlərdə, beynəlxalq tədbirlərdə iştirak, o cümlədən BMT, ATƏT kimi beynəlxalq təşkilatlarla mandatına uyğun əməkdaşlıq icma üçün ilin əsas uğurlarından olub.

Azərbaycanın şaxələndirilmiş diplomatik fəaliyyəti göstərir ki, ölkə yalnız regional layihələrlə kifayətlənməyərək, beynəlxalq arenada fərqli güc mərkəzləri arasında tarazlıq yaratmağa çalışır. BRICS ölkələri ilə qurulan dialoq və əməkdaşlıq həm qlobal miqyasda təsirli inteqrasiyanın bir hissəsi kimi çıxış edir, həm də Azərbaycanın xarici siyasətinin müstəqil və balanslı xarakterini əks etdirir. Bu il Azərbaycanın Qahirədə keçirilən (D8) İqtisadi Əməkdaşlıq Təşkilatının Sammitində bu təşkilatın üzvlüyünə qəbul edilməsi çox əlamətdar hadisədir. Dünya müsəlmanlarının 60 faizini, yəni 1,1 milyard insan olmaqla dünya əhalisinin 15 faizini birləşdirən 4 trilyon dollar ÜDM-ə malik bu təşkilata üzvlüyümüz Azərbaycana yeni imkanlar qazandıracaq. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə yaradılmış Parlament şəbəkəsi öz işini bu il də uğurla davam etdirib və hazırda ona Milli Məclisin Sədri Sahibə xanım Qafarova rəhbərlik edir. Bu çərçivədə böyükmiqyaslı beynəlxalq tədbirlər keçirilib və Azərbaycan sədrliyi təşkilat daxilində parlament diplomatiyasının gücləndirilməsi və inkişafına dəstək olmaqda davam edir.

Bu il ölkəmizdə həm prezident, həm də parlament seçkiləri keçirildi. Fevralın 7-də keçirilmiş prezident seçkiləri Azərbaycan xalqının onun liderliyinə və ölkənin gələcək inkişafına olan etimadının bariz ifadəsi oldu. İlham Əliyev xalqın böyük dəstəyi ilə yenidən prezident seçilərək Azərbaycanın siyasi sabitliyi və davamlı inkişafı üçün liderlik missiyasını davam etdirməyə hazır olduğunu göstərdi. Sentyabrın 1-də ölkə ərazisində keçirilmiş növbədənkənar parlament seçkiləri də ilk dəfə müstəqil Azərbaycanın bütün suveren ərazilərində baş tutdu və VII çağırış parlament yeni tərkibdə fəaliyyətə başladı. Parlamentimizdə bir çox mütərəqqi qanun layihələri qəbul edildi. İlin sonlarına doğru qəbul edilən "Diplomatik Xidmət" haqqında qanun çağdaş dövrün tələblərinə uyğun hazırlanıb.

Bu il ərzində qeyri-hökumət təşkilatlarının beynəlxalq sahədə uğurlarını da unutmaq olmaz. Hazırda QHT-lərimiz beynəlxalq mühitin imkanlarından istifadə edərək beynəlxalq tədbirlərdə təmsil olunur, qlobal tədbirlər təşkil edir və keçirir, belə tədbirlərdə müzakirə olunması üçün mövqe sənədləri və ya alternativ hesabatlar göndərirlər. Beynəlxalq təşkilat, fond və konvensiyalara müşahidəçi olur, beynəlxalq təşkilat yaradırlar. Cənubi Qafqaz regionunda təmiz ətraf mühitin mühafizəsi üzrə fəaliyyət göstərən və Ermənistanın qeyri-şəffaf dağ-mədən sənayesi ilə mübarizə istiqamətində "Environmental Protection First" Koalisiyasının beynəlxalq QHT-lərlə uğurlu advokasiya fəaliyyəti də davam edib.

Azərbaycanın vətəndaş cəmiyyəti nümayəndələri ötən ay ölkəmizdə tarixi nailiyyətlərlə yadda qalan COP29 tədbiri zamanı xüsusi fəallıq nümayiş etdirib, həmçinin konvensiyaya tərəf olan dövlətlərin kollektiv qərarına əsasən, 4 Azərbaycan QHT-si konvensiya yanında daimi əsaslarla müşahidəçi statusu əldə edib. İlin əvvəlində cənab Prezidentin sərəncamı ilə 6 vətəndaş cəmiyyəti nümayəndəsinin COP29 Təşkilat Komitəsinin tərkibinə daxil edilməsi dövlət başçısının QHT-lərə yüksək etimadından və onların cəmiyyətdəki roluna verdiyi önəmdən irəli gəlir. Ən inklüziv COP-lardan biri kimi yadda qalan COP29-da iştirakçılıq sayına görə 2-ci yerdə QHT nümayəndələrinin olması tədbirin dünya QHT-ləri üçün əhəmiyyətini göstərdi. Bu gün Ulu Öndərin "Azərbaycan dünyaya günəş kimi doğacaq" ifadəsinin gerçəkliyini tam hiss edirik.

***Pərvanə VƏLİYEVA,***
***Milli Məclisin deputatı***

Azərbaycan.-2024.- 30 dekabr (№ 290).- S.14.